# SEVİNC YUNUSLUNUN SÖZ DÜNYASI



<u>**Məmməd Dəmirçioğlunun təqdimatında**</u>

***Bu sayımızda, Gəncə bölgəmizdə yaşayıb, jurnalist kimi fəaliyyət göstərən istedadlı qələm dostumuz, Qalib Rəhimlinin işlədiyi bir mənzərəni "Ədalət"in oxucularına təqdim edirəm.***

Sevinc Yunuslunun şerləri mənə çox doğma gəlir. Sadə və lakonik deyim tərzi, dilin saflığına hörmət, canlı olan təbiətə, fəsillərə, ən əsası insanlığa məhəbbət onun şerlərinin əsas qayəsini təşkil edir. Şerlərində qarşı tərəfi də insani duyğularla ittiham edir. Və ən başlıcası şerlərində ilahilik var. Tanrıya sədaqət, haqqa, haqq dünyasına inamdan yaranan ehtiyac canlanır. Bütün bunları və digər sehrli tərəfləri nəzərə alaraq gənc xanım şairənin şerləri barədə bir neçə kəlmə qələmə aldım. Bunu özümə borc bildim. İndi onu sizlərlə, əziz oxucularla paylaşıram.

Qədim və zəngin yaradıcılıq ənənələrinə malik Azərbaycan ədəbiyyatı zaman-zaman gəncliyin gətirdiyi yeni nəfəslə ucalıb, inkişaf edib, özünə əbədi yaşam qazanıb. İstər qədim dövr, istər hər hansı bir rejim, istərsə də sözə azad meydan olsun-fərq etməz - yaradıcı insan özünü tanıdıb, təsdiq edib. İçində gəzdirdiyi fikirləri misra çələnginə çevirib, düşüncə və məntiqi ilə mənəvi qida boşluğunu doldurub. Beləcə həm ədəbiyyatımızın poeziya qolu güclənib, həm də oxucu bədii sözün sehri ilə qaynayıb- qarışıb. Bu gün isə həqiqi mənada böyük istedadlar yetişir. Sərbəst düşünür, ürəyinin hökmünə qulaq asır və söz dünyasının möcüzəsini zərrə-zərrə insanların qanına hopdurur. O söz, o şeir sevilən olur ki, o doğrudan yazar insanın daxilindən qaynayıb gəlir. Təbii ki, boğazdan yuxarı deyilən heç nə yaşamaq üçün vəsiqə qazana bilməyib.

Sevinc Yunuslu da məhz söz dünyasının sehrinə düşən gənc şairlərdəndir və sözünün çəkisini, qədir-qiymətini bilənlərdəndir. Mən onunla hələ üzüzə, göz-gözə gəlməmişəm. Sadəcə yaradıcılıq dünyasına dövrü mətbuatla yaxınlaşmağa çalışmışam. 25 yaşlı bir gəncin özünə məxsus poetik aləmi məni elə tutub ki, uzun zaman oxuduğumun təsirində qalmışam. Bir onu deyə bilmişəm ki, dünyaya meydan oxuyan Azərbaycan klassiklərinin davamı gəlməkdədir. Diqqət edək;

**Ötən qış ötdü şaxtalı,**
**Dedim dedim ki, yaz gələ.**
**Unut məni, çıxım gedim,**
**Gedim gedim ki, yaz gələ.**

**Göz yaşımdı yağan yağış,**
**Sevgim bəzək, sevgim naxış.**
**Gərək sevdiyimə bu qış,**
**Yetim yetim ki, yaz gələ.**

**Qışdan qışı dərib bahar,**
**Ömrümə göndərib bahar,**
**Bu qışı döndərib bahar,**
**Edim edim ki, yaz gələ,**
**Gedim, gedim ki, yaz gələ.**

Nə qədər şirin, nə qədər sadə və bunların cəmində də böyük məna tutumu və mənəvi dəyər yaşadan bu balaca şeir mahiyyəti ilə oxucunu necə ovsunlamaya bilər? Burda fəsillərin müqayisəli gözəlliyi ilə insan duyğularının gözəlliyi üst-üstə düşür və elə poetik möcüzə də bundan yaranır. Təbii ki, hamı baharı gözləyir və bununla bağlı fikirlər söyləyə bilir. Amma heç kim Sevinc Yunuslu qədər poetik düşüncə ilə söz meydanına girə bilmir və müdrik fikirlərin gənc yaşlarında daşıyıcısına çevrilmir. Bax özünə məxsusluq elə budur. Sevinc ürəyindəki ilahi sevgiyə qovuşmalıdı ki, yaz gələ. Həm onun qışın şaxtasından üşüyən ürəyi isinə, həm də məmləkətin ruzi çeşməsi olan təbiət oyana. Mən buna sadə, hamının başa düşdüyü fəlsəfi dəyər deyərəm.

**Tufanlı havada, boranlı qışda,**
**Şehlənsə bilinər gülün sevinci.**
**Kiçicik namədə, böyük ümidlə,**
**Necə sevindirdiz, bilin, Sevinci.**



Bu nümunə isə başqa şerdəndi. Amma Sevincin yaradıcılığında məntiqi ardıcıllıq olduğundan xəbər verir. Gülün sevincinin şehlə yaranması da olduqca inandırıcı və təbiidir. Tufanlı hava, boranlı qış və qəfil gülün şehlənməsi. Yenə təbiət, yenə ilahilik. Daha bir şerinə də diqqət çəkmək istərdim.

**Payızın kölgəsində**
**Qış olub gizlənmişəm.**
**Yarpaqlar arasında**
**Quş olub gizlənmişəm.**

**Gəlmişəm ki, qəm yeyəm,**
**Nə bilmişəm cəm deyəm?**
**Qara gözlərindəyəm,**
**Yaş olub gizlənmişəm.**

**Göz yaşıyam bulaqda,**
**Solmuşam bir budaqda.**
**Mən burdayam, bu dağda**
**Daş olub gizlənmişəm.**

Yenə də fəsillər və sevdalı şair dünyası baş başadır. Ən önəmlisi odur ki, Sevin Yunuslu dili çox təmiz və sadədir. Onu hamı oxuya bilir, hamı duya bilir və ixtiyarsız yaddaşlara hopur. Elə əsil şer də özündən ixtiyarsız yaddaşına hopandır.

**Yanıb külə dönüb içim,**
**Çölüm, yalvarar olmuşam.**
**Vaxtınnan tez apar məni-**
**Ölüm, yalvarar olmuşam**

Bu şeirdə isə bir gəncin nədənsə bezib ölümə yalvarar olması görünmür. Burda haqqa tələsən, gəncliyindən haqq sevdasına tutulanın istəyinə qovuşma üsyanı görünür. İnsanın böyüklüyü də ondadır ki, yaşaya-yaşaya ölümünü, haqqını düşünür, sanki bir növ ona can atmaqla söz, poeziya dünyasının daha dərinliklərinə enir. Sevincin dünyaya göz açdığı yurdun ab-havası, sinəsi üstündə ayaq açdığı müqəddəs İncə dərəsi də onun yaradıcılığına təsirsiz qalmayıb.

Əsrlər boyu insanların inanc yeri olan əfəndilər, onların uyuduğu türbələr, şırıl-şırıl axan İncə çayı, bir də el məclislərinin yaraşığı olan saz Sevinc Yunuslunun söz dünyasına güc gətirir, sevgi, inam gətirir. Daha dəqiqi 25 yaşın müdrikliyi ilə baş-başa qoyur oxucusunu.

**Hönkürüb dənizlərə**
**Axıb unutdum səni.**
**Gözündəki gözlərə**
**Baxıb unutdum səni.**

**Baş götür, baş götür qaç,**
**Unut, çiçəklən, gül aç.**
**Kədəri başıma tac**
**Taxıb unutdum səni...**

**Alışdı köz içimdə,**
**Qaldı bir söz içimdə.**
**Özümü öz içimdə**
**Yaxıb unutdum səni.**

Kədəri başa tac edib unutmaq ilk baxışdan adi görünə bilər. Amma onu yaşayanda bu adilikdən çıxır və düşüncə mərkəzinə çevrilir. Və ya "Özümü öz içimdə, Yaxıb unutdum səni". Gözəldir. Sadəcə sevgi dolu misra yükünün təntənəsidir.

Sevincin yaradıcılıq uğurlarının sirrinə gəlincə deyərdim ki, onun yumruq boyda ürəyində dünya boyda ilahi eşq, təmannasız söz və yurd sevgisi başlıca yer tutur. Bu isə hər adamda, hər yazarda olmur. Sevgisi olanın sözü, sözü olanın sevgisi olmayıb. Amma Sevincdə bunların ikisi də var olduğundan onun şerləri adamı çəkir, özünə bağlayır.

**Bilirəm günahım çoxdu,**
**Cəzamı çəkməyə gəldim.**
**Könlümün günahlarını**
**Gözümdən tökməyə gəldim.**

**Yara gəldi yar yerinə,**
**Gül ağlayar xar yerinə.**
**Qayıdım məzar yerimə**
**Bu dünyaya niyə gəldim?..**

Hə, Sevinc Yunuslu, bu dünyaya gəldin ki, ustadlarının söz dünyasına yeni ruh, nəfəs verəsən. Sizi sevənlərin mənəvi boşluğuna şirin-şəkər misralarınla zənginlik gətirəsən. Bir də İncə ədəbi məktəbinin ən layiqli yazarlarından Ağamalı Sadiq Əfəndinin, Akif Səmədin ruhuna hörmət və ehtiramını, Məmməd İlqarın və Məmməd Dəmirçioğlunun dəst-xəttinə sadiqliyini təsdiqləyəsən. Digər yazarlarımız inciməsin. Əslində İncə dərəsinin poeziyası tam fərqli bir çeşmədi. Bu çeşmədən içənlərə salam, sənə uğurlar olsun.

**Qalib Rəhimli**

